*(Əvvəli qəzetimizin 5-ci sayında)*

"Biz kimik" (2004) kitabınıY.V.Çəmənzəminlinin şəxsi arxivində olan əlyazma və çap materialları əsasında tərtib edən Ş.A.Hümmətlinin bu kitabında Yusif Vəzirin başqa toplularında verilməyən, o cümlədən yeni aşkar edilən və müasir oxucular üçün ilk dəfə dərc edilən sayı 50-yə yaxın məqalə və əlyazmaları təqdim edilmişdir.

2004-cü ildə Şəlalə xanım Y.V.Çəmənzəminlinin"Hədərən-pədərən" sərlövhəsi ilə yazdığı və nəşr etmək istəyi ilə topladığı, amma bir kitab halında çap edə bilmədiyi "Sərsəm" imzalı felyetonlarını transfoneliterasiya etmiş, "Hədərən-pədərən" adlı kitab ərsəyə gətirərək ilk dəfə oxuculara təqdim etmişdir. Kitabda təqdim edilən, Yusif Vəzirin arxiv materialları içərisindəki qəzet kəsiklərindən ibarət albomundan aşkar edilən "Fərhad və Şirin" adlı bir felyeton isə çəmənzəminşünaslıq üçün də bir yenilikdir. Eyni zamanda,bu kitaba daxil edilən "Vətən" felyetonu da arxivdəki həmin albomda mühafizə edilən qəzet kəsiklərindəngötürülmüşdür. Felyetonunun çap olunduğu qəzet səhifəsinin üzərində ədibmürəkkəblə düzəlişlər etsə də, Ş.A.Hümmətlibu felyetonun çəmənzəminlişünaslığa məlum olan variantından fərqlənən bu ilk çap variantını kitaba daxil etmişdir.

Ş.A.Hümmətlinin 2014-cü ildə qələmə aldığı "Yusif Vəzir Çəmənzəminlinin elmi-ədəbi irsi yeni faktların işığında" monoqrafiyasındatədqiqatçının ədibin elmi-ədəbi irsini araşdırarkən aşkar etdiyi yeni faktlardan söz açılır, çəmənzəminşünaslığa və elmi-ədəbi ictimaiyyətə məlum olmayan müxtəlif əlyazmalardan, Yusif Vəzirin "Zərəsb" gizli imzasından, bu imza ilə yazdığı məqalələrdən ilk dəfə bəhs olunur.

# "Şuşa ili"ndə Yusif Vəzir Çəmənzəminlinin dilçilik fəaliyyətinə dair

Müəllifin həmin ildə nəşr olunan "Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri" adlı monoqrafiyasında Yusif Vəzirin ədəbi-tənqidi görüşləri ilk dəfə ayrılıqda, geniş, ətraflı və sistemli şəkildə araşdırılmışdır. Monoqrafiyaya həmçinin tədqiqat prosesində aşkar edilən yeni faktlarla əlaqədar müxtəlif sənədlər- əlyazma və çap materiallarının ksero və foto surətləri əlavə edilmişdir.

"Şuşa torpağında doğulan dilçi alim Yusif Vəzir Çəmənzəminli" adlı yeni əsər Şəlalə xanımın Yusif Vəzirlə bağlı işıq üzü görən sayca beşinci kitabıdır.

Bu günədək elmi, ədəbi, publisistik yaradıcılığına görə bir çox diplom və mükafatlara layiq görülən Şəlalə Ana Hümmətlinin yeni uğurlarından biri də onun 2022-ci il -"Şuşa ili"ndə Qarabağ-Şuşa mövzusunda apardığı tədqiqatlarına görə Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsinin Fəxri Fərmanı ilə ( 2022) təltif edilməsidir.

Yazıçı, publisist, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəlalə Ana Hümmətlinin çox qısa müddətdə, lakin böyük bir səy, zəhmətvə sevgiylə ərsəyə gətirdiyi bu kitab"2022-ci il- Şuşa ili"ndə geniş ictimaiyyətə təqdim olunan,bizi tarixi və gözəl şəhərimiz Şuşaya səyahət etdirən, Y.V.Çəmənzəminlinin ruhunu canlandıran dəyərli və zamansız əsərlərdən biridir.

***Vəfa ABDULLAYEVA-NSSBİYEVA,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutu, aparıcı elmi işçi, fil.ü.f.d., dos.***

***Aytən HÜSEYNOVA-QSSHRSSMANLI***
***elmi işçi***

*Redaksiyadan: Bu yazının qəzetimizin 5-ci sayında dərc olunan hissəsində texniki olaraq müəlliflərdən birinin - Aytən Hüseynova-Qəhrəmanlının adı verilməyib. Diqqətsizliyə görə müəllifdən üzr istəyirik.*

*2023*